**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın**

**2023-cü ilin iyul – dekabr ayları üçün**

# Hesabat

**İyul 2023**

**21.07.2023**

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuraya keçirilən seçkilərin yekun nəticələri**

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq, 19 və 21 iyul 2023 tarixlərində Bakı şəhəri regional miqrasiya baş idarəsinin inzibati binasında (Bakı şəhəri, Atatürk prospekti 189) keçirilən seçkilərin nəticələrinə uyğun olaraq tələb olunan səs çoxluğunu toplamış İctimai Şuranın yeni, beşinci tərkibdə üzvləri aşağıdakılardan ibarət olmuşdur:

1. İskəndərli Ramil Əvəz oğlu - “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyi
2. Əliyev Fuad Ağasi oğlu - “Vətəndaş Hüquqlarının Müdafiəsinə Dəstək” İctimai Birliyi
3. Mehtiyeva Rahilə İbrahim qızı - “Sosial-İqtisadi və Ekoloji İnkişaf” İctimai Birliyi
4. Hüseynova Məhsəti Əli qızı - “Gənclərin Töhfəsi” İctimai Birliyi
5. Gözəlova Günel Salam qızı - “Jurnalist Sənətkarlığının İnkişafına Dəstək” İctimai Birliyi
6. Fərzəliyev Əli Vələhəd oğlu - “Avrasiya Hüquqşünaslar Assosiasiyası” İctimai Birliyi
7. Kətanov Məmməd Teymur oğlu - “Azərbaycan Qızıl Aypara Cəmiyyəti”
8. Şükürov Adil Arif oğlu - “Miqrasiya Könüllüsü” İctimai Birliyi
9. Vəliyev Asim Nazim oğlu - “Gənc Diplomatların Peşəkarlığının İnkişafına Dəstək” İB




**Avqust 2023**

**12.08.2023**

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın tam tərkibdə keçirilən ilk iclası**

DMX yanında İctimai Şuranın ilk iclasında DMX Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhrəmanov seçilmiş üzvləri təbrik etmiş və onlara fəaliyyətlərində uğurlar arzulamışdır. O, İctimai Şuranın yeni tərkibindən gözləntilərin yüksək olduğunu vurğulamış və iştirakçıları Xidmətin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı barədə məlumatlandırmış, İctimai Şuranın fəaliyyətinin əhəmiyyətini bildirmişdir.

Daha sonra İctimai Şuranın açıq səsvermə yolu ilə rəhbər vəzifələrinə seçki keçirilmişdir. "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İskəndərli Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri, "Vətəndaş Hüquqlarının Müdafiəsinə Dəstək" İctimai Birliyinin sədri Fuad Əliyev və "Sosial-İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehtiyeva İctimai Şuranın sədr müavinləri, "Gənclərin Töhfəsi" İctimai Birliyinin sədri Məhsəti Hüseynova isə Şuranın katibi seçilmişlər.



**14-18.08.2023**

**“Miqrasiya tədqiqatlarının aparılması” üzrə seminar**

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) ilə birgə icra olunan “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE 2)” layihəsinin 2-ci komponenti olan “Miqrasiya məlumatları: tədqiqat və təhlil” çərçivəsində 14-15 və 17-18 avqust tarixlərində keçirilən “Miqrasiya tədqiqatlarının aparılması” üzrə seminarda DMX yanında İctimai Şuranın sədri Ramil İskəndərli iştirak etmişdir. Seminar Dövlət Miqrasiya Xidmətinin inzibati binasında keçirilmişdir.



**22.08.2023**

**İctimai Şura üzvlərinin Xidmət Rəisi ilə görüşü**

DMX yanında İctimai Şuranın V tərkibdə iclası keçirilib. Xidmət rəisi Vüsal Hüseynov İctimai Şuraya seçilmiş üzvləri təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Xidmət rəisi müraciət edənlərin məmnunluğunun, eləcə də şəffaflığın yüksək səviyyədə təmininin daim diqqət mərkəzində olduğunu və bununla bağlı qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa önəm verildiyini diqqətə çatdırıb.

O, İctimai Şuranın əvvəlki tərkibi kimi, yeni tərkibinin də respublikamızda miqrasiya proseslərinin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətində, eləcə də maarifləndirmə proseslərində sıx əməkdaşlıq şəraitində uğurla fəaliyyət göstərəcəyinə, daim aktiv olacağına, rəy və təkliflərlə çıxış edəcəyinə ümidvar olduğunu bildirib.

DMX yanında İctimai Şuranın yeni sədri Ramil İskəndərli Xidmətin fəaliyyətini yüksək dəyərləndirərək, Şuranın gələcək planları barədə məlumat verib. O, Şuranın ötən illərdə formalaşmış müsbət idarəçilik ənənələrinin bundan sonra da davam etdiriləcəyini bildirib.

Sonra təkliflər dinlənilib və təşkilati məsələlərə baxılıb. İctimai Şura üzvlərinə yeni üzvlük vəsiqələri təqdim edilib.

Görüşün videosu: https://youtu.be/pGoeeF8_HWg?si=MXAa0mw2UdIE6ZRn



**Sentyabr 2023**

**“Azərbaycanda miqrasiya idarəçiliyi və bu sahədə yeniliklər” mövzusunda tədbir**

**08.09.2023**

Dövlət Miqrasiya Xidmətində sentyabrın 7-də xarici ölkələrin Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik nümayəndəliklərindən, habelə beynəlxalq təşkilatlardan nümayəndələrin iştirakı ilə “Azərbaycanda miqrasiya idarəçiliyi və bu sahədə yeniliklər” mövzusunda tədbir keçirilib.
Tədbirdə Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhrəmanov, Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Xidmətin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Əliyev və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin nümayəndəsi Gülnarə Pənahova çıxış etdi.
Tədbirdə Dövlət Miqrasiya Xidməti yanında ictimai şuranın sədr müavini Rahilə Mehdiyeva, ictimai şuranın katibi Məhsəti Hüseynova və ictimai şura üzvü Adil Şükürov da iştirak etdi. Sonda iştirakçılar tərəfindən verilən suallar cavablandırılıb.



**13.09.2023**

## Reinteqrasiya üzrə tədbir

### “Axısxa Türkləri - Azərbaycanın sosial və mədəni həyatında rolu” adlı tədbir

Layihənin rəhbəri DMX yanında ictimai şuranın katibi Məhsəti Hüseynova, Layihənin ekperti DMX yanında ictimai şuranın üzvü Asim Vəliyev, 13 sentyabr 2023-cü il tarixdə Gəncliyə Yardım Fondunun akt zalında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, “Gənclərə Qayğı” İctimai Birliyinin təşkilatçılığı, “Gənclərin Töhfəsi” İctimai Birliyi və “Azərbaycan-Türkiyə Qida Təhlükəsizliyi” İctimai Birliyinin tərəfdaşlığı ilə “Axısxa Türkləri – Azərbaycanın sosial və mədəni həyatında rolu” adlı layihə çərçivəsində tədbir keçirildi.
Layihənin məqsədi – Axısxa türklərinin Azərbaycanın sosial və mədəni həyatından oynadığı rolu və Azərbaycan cəmiyyətinə verdiyi töhfələri təbliğ etmək, birlik və bərabərliyimizi möhkəmləndirməkdən ibarətdir.
Layihə çərçivəsində Bakıda və Saatlıda 2 günlük tədbir təşkil olundu. Tədbirdə “Axısxa Türklərinin mətbəx kültürü”, “Axısxa türklərinin adət-ənənələri”, “Axısxa türklərinin tarixi Vətənlərinə qayıdış prossesi” mövzularından panel müzakirələrdən ibarət oldu. Həmçinin Axısxa türklərinin milli geyimləri, mətbəxi sərgiləndi, maarifləndirici kitabçalardan ibarət sərginin təşkil olundu.



**22.09.2023**

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın ikinci iclası**

Bakı regional miqrasiya baş idarəsinin inzibati binasında sentyabrın 22-də İctimai Şuranın növbəti iclası keçirilib. İclasda Şuranın reqlamenti, müraciətlərlə bağlı qeydiyyat forması, işçi qrupların yaradılması, Şuranın etik davranış kodeksi, loqosu və digər məsələlər müzakirə edilib və cari ilin sonunadək icrası tələb olunan fəaliyyətlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən İctimai Şuranın sədri Ramil İskəndərli Şura üzvlərinə müraciət edən miqrantlara zəruri hüquqi məsləhətlərin verilməsi və ehtiyacı olan şəxslərə məlumat dəstəyi göstərilməsinin vacibliyini diqqətə çatdırıb. İctimai Şuranın nəzdində fəaliyyət göstərən işçi qrupların üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə ümid etdiyini bildirib.

İclasda Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəis müavini Kəyan Hacıyev icrası nəzərdə tutulan fəaliyyətlərin həyata keçirilməsində təmsil etdiyi qurum tərəfindən zəruri təşkilati və texniki dəstəyin göstəriləcəyini bildirib.

Sonda 2023-cü ilin sonuncu rübündə icrası planlaşdırılan məsələlər ətrafında müzakirələr aparılıb, irəli sürülən təklif və tövsiyələrə münasibət bildirilib.



**26.09.2023**

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzində (MSİBM) görüş**

Cari ilin 26 sentyabr tarixində Xidmətin əsas beynəlxalq tərəfdaşlarından biri olan Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) Bakı şəhərində yerləşən ofisində təşkil olunmuş tədbirdə İctimai Şura ilə MSİBM arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tədbiri giriş sözü ilə açan MSİBM-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Səltənət Məmmədova İctimai Şuranın yeni seçilmiş üzvlərini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, MSİBM-nin əsas fəaliyyət istiqamətləri, Dövlət Miqrasiya Xidməti ilə mövcud əməkdaşlıq əlaqələri, eyni zamanda "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın İcrasına Dəstək (MOBİLAZE 2)" layihəsi və digər layihələr çərçivəsində əldə edilən nəticələr və reallaşdırılan səmərəli tədbirlər barədə  İctimai Şura üzvlərini məlumatlandırıb.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Ramil İskəndərli səmimi qəbula və əməkdaşlığa görə təşəkkürünü ifadə edərək, İctimai Şuranın gələcək fəaliyyət planı, gündəlik işləri və perspektivləri barədə məlumatı diqqətə çatdırıb. Daha sonra, İctimai Şuranın digər üzvləri fəaliyyət göstərdikləri sahələr üzrə öz təcrübələrini və hazırkı fəaliyyət istiqamətləri barədə məlumatı bölüşüblər.



**28.09.2023**

**MİEUX+ pilot layihəsi çərçivəsində onlayn görüş**

“Miqrantların İnteqrasiyasına dair Strategiyanın, əlaqədar Fəaliyyət Planının və Tədris Proqramının hazırlanmasına dəstək” (MİEUX+) pilot layihəsi çərçivəsində 28 sentyabr 2023-cü il tarixdə Bakı vaxtilə saat 15:00-dan 17:00-dək onlayn formatda miqrantların inteqrasiyasına dair strateji sənədin və onun fəaliyyət planının ilkin layihəsinin təqdimatı keçirilmişdir. Onlayn formatda keçirilən tədbirə İctimai Şura üzvlərindən bəziləri qoşulmuşlar. Ramil iskəndərli tədbirdə strateji sənədlə bağlı öz fikirlərini çıxış edərək bölüşmüşdür.



**Oktyabr 2023**

**11.10.2023**

**İctimai Şuranın üzvləri Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə monitorinq səfəri ediblər**

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri, "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İskəndərli, İctimai Şuranın sədr müavinləri Fuad Əliyev və Rəhilə Mehdiyeva, üzvlər Günel Gözəlova, Məhsəti Hüseynova, Məmməd Kətanov və Əli Fərzəliyev oktyabrın 11-də Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə monitorinq səfəri ediblər. Səfərdə məqsəd, Mərkəzdə yerləşdirilən əcnəbilər üçün yaradılan şəraitlə əyani şəkildə tanışlıq olub.

İctimai Şuranın üzvləri əyani olaraq qanunsuz miqrantların Mərkəzə qəbulu və yerləşdirilməsi prosesi, onların saxlanıldıqları şərait, mərkəzin yataqxana korpuslarına, yaşayış və tibb otaqlarına, görüş otağı, istirahət otaqları, yeməkxana, təmizlik və gigiyena qaydalarına riayət şəraiti, təminat anbarı və digər yerlərlə tanış olublar. Habelə Mərkəzdə yerləşdirilən şəxslərlə görüşüblər. Onları narahat edən məsələlər ətrafında müzakirələr aparıblar.

İctimai Şura üzvləri Mərkəzin fəaliyyətinin və miqrantlar üçün yaradılan şəraitin miqrasiya qanunvericiliyində nəzərdə tutulan insan hüquq və azadlıqlarının təmin olunması prinsiplərinə uyğunluq təşkil etdiyini bildiriblər.


XİDMƏTİ
BAKI QANUNSUZ
BAKU

**12.10.2023**

İctimai Şuranın üzvlərindən, Ramil İskəndərli, Məmməd Kətanov və Rahilə Mehdiyeva 12 oktyabr 2023-cü il tarixdə Bakı şəhərində "Hilton Baku" mehmanxanasının "Lazurit" zalında Azərbaycan Respublikasının sədrlik etdiyi Almatı Prosesi çərçivəsində keçirilən yüksək vəzifəli şəxslərin 8-ci görüşündə iştirak etmişlər.




**23-25.10.2023**

**Təlimçilərin təlimi**

"Miqrantların inteqrasiyasına dair Strategiyanın, əlaqədar fəaliyyət planının və tədris proqramının hazırlanmasına dəstək" pilot layihəsi çərçivəsində Park Inn otelində keçirilən miqrantların inteqrasiyasına dair təlimçilərin təlimində İctimai Şuranın sədri Ramil İskəndərli iştirak etmişdir

**25.10.2023**

**Qanunsuz miqrasiya ilə mübarizə sahəsində ictimai müzakirə**

Dövlət Miqrasiya Xidmətində "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyi tərəfindən icra olunan "Azərbaycan cəmiyyətinə miqrantların inteqrasiyası və bu sahədə tədbirlərin təşkili" layihəsi çərçivəsində növbəti ictimai müzakirə keçirilib.

"Qanunsuz miqrasiya ilə mübarizədə QHT-lərin rolu" mövzusunda təşkil olunan ictimai müzakirədə miqrant qrupları ilə işləyən, o cümlədən insan alveri problemi ilə mübarizə aparan qeyri-hökumət təşkilatlarının nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.



**Noyabr 2023**

**03.11.2023**

**Sosial Tədqiqatlar Mərkəzində “Dövlət Miqrasiya Xidmətinin göstərdiyi elektron xidmətlərin təqdimatında iştirak**

İctimai Şuranın 4 üzvü - Ramil İskəndərli, Əli Fərzəliyev, Məhsəti Hüseynova və Rahilə Mehdiyeva, eləcə də Şurada təmsil olunan Miqrasiya Könüllüləri İctimai Birliyin nümayəndəsi “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın 2023-cü il üzrə Tədbirlər Planı”nın 13-cü bəndinin icrası məqsədilə *(Azərbaycan Respublikası Prezidentinin 04.04.2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq olunmuş Fəaliyyət Planında əsas icraçı Sosial Tədqiqatlar Mərkəzidir)* Dövlət Miqrasiya Xidmətinin göstərdiyi elektron xidmətlər və sorğularla bağlı Sosial Tədqiqatlar Mərkəzində keçirilən təqdimatda iştirak etmişlər.

Tədbirdə DMX məsul əməkdaşları, DMX yanında İctimai şura üzvləri, STM əməkdaşları iştirak ediblər. Tədbiri giriş sözü ilə STM icraçı direktoru, Milli Fəaliyyət Planının icrası üzrə işçi qrupun rəhbəri Sahib Məmmədov açaraq qısa olaraq Tədbirlər Planının 4.9-cu bəndinin icra gedişi ilə bağlı məlumat verib. Sahib Məmmədov Dövlət Miqrasiya Xidmətinin dövlət xidmətlərinin göstərilməsi sahəsində yüksək göstəricilərə malik olmasını, xidmətalanların DMX tərəfindən göstərilən xidmətlərdən məmun olduğunu qeyd edib.

Dövlət Miqrasiya Xidmətinin Miqrasiya Siyasəti və hüquqi təminat baş idarəsinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vahid Qəhrəmanov giriş nitqi söyləyib.

Daha sonra Miqrasiya proseslərinin təhlili idarəsinin rəis müavini Sunay Quliyev “Dövlət Miqrasiya Xidmətinin göstərdiyi elektron xidmətlər, elektron sənəd dövriyyəsi və bu sahədə nəzərdə tutulan fəaliyyətlər” mövzusunda təqdimat edib.



**17.11.2023**

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvlərinin Naxçıvana səfəri**

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvləri Naxçıvan Muxtar Respublikasında iki günlük işgüzar səfərdə olublar. Qeyd etmək yerinə düşər ki, bu Azərbaycanda ictimai iştirakçılıq tarixində mərkəzi icra orqanları yanında fəaliyyət göstərən İctimai Şuralar arasında üzvlərin Naxçıvana edilən ilk birgə işgüzar səfər olmuşdur.

Əvvəlcə xalqımızın Ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib.



Sonra Şura üzvləri Naxçıvan regional miqrasiya baş idarəsinə baş çəkib, əməkdaşların iş şəraiti ilə tanış olublar. Onlara regional baş idarənin əhatə etdiyi rayonlarda əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi və onların ölkə ərazisində qanuniləşdirilməsi istiqamətində görülən işlər, elektron xidmətlər, mütəmadi təşkil edilən maarifləndirmə tədbirləri və digər fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.



Həmçinin Şura üzvləri Naxçıvan ASAN Xidmət Mərkəzinə səfər ediblər və burada fəaliyyət göstərən Miqrasiya bölməsinin işi ilə tanış olublar. Mərkəzin fəaliyyəti haqqında ümumi məlumat verən əməkdaşlar təşkil olunan işin müxtəlif aspektləri barədə danışıb, üzvləri maraqlandıran sualları cavablandırıblar.




Bundan başqa Naxçıvan şəhəri qanunsuz miqrantların saxlanılması mərkəzində əcnəbilər üçün yaradılan şəratin miqrasiya qanunvericiliyinə uyğun təşkil olunma vəziyyəti monitorinq edilib. Şura üzvləri miqrantlara göstərilən xidmət səviyyəsini dəyərləndiriblər, mərkəzin qanunvericilikdə nəzərdə tutulmuş qaydada təşkil olunduğunu bildiriblər.



**Dekabr 2023**

**07.12.2023**

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın növbəti, üçüncü iclası**

Bakı Regional Miqrasiya Baş İdarəsinin inzibati binasında keçirilən iclasda İctimai Şuranın sədri Ramil İskəndərli, sədr müavinləri Rəhilə Mehdiyeva və Fuad Əliyev, İctimai Şuranın Katibi Məhsəti Hüseynova, eləcə də Şuranın üzvü Əli Fərzəliyev iştirak etmişdir.

Görüşdə İctimai Şuranın 2023-cü il fəaliyyətinin yekunları barədə fikir mübadiləsi aparılmış və ümumilikdə şurasın qısa dövr ərzində fəaliyyəti produktiv hesab edilmişdir.
İctimai Şuranın yeni heyətinin fəaliyyət göstərdiyi müddətdə 26 miqrant və əcnəbi şəxslərdən müraciətlər daxil olmuş və onlara qanunvericiliyə uyğun lazımi məsləhətlər və istiqamətləndirilmə verilmişdir. Hər bir müraciət qeydiyyata alınmışdır.

İctimai Şura üzvləri ötən 5 ay müddətində Bakı və Naxçıvan Qanunsuz Miqrantların Saxlanma Mərkəzlərinə monitoprinq səfərlərinin nəticələri, miqrasiya sahisəndə Dövlət Miqrasiya Xidməti tərəfindən təşkil edilmiş yerli və beynəlxalq əhəmiyyətli tədbir və görüşlərdə iştirakı yüksək qiymətləndirmişlər.



**Miqrantlar və əcnəbilər tərəfindən İctimai Şuraya edilən müraciətlər:**

İctimai Şuraya miqrantların, əcnəbilərin və xaricdə yaşayan azərbaycanlılar tərəfindən müraciətlər.

Hesabat dövründə Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuraya 26 nəfər miqrant, əcnəbi və vətəndaşlığı olmayan şəxslər, və xarici yaşayan azərbaycanlılar müraciət etmişlər. Bu əsas etibarilə aşağıdakı ölkələrdən olan şəxslər olmuşlar:

-Türkiyə, Gürcüstan, Rusiya, İran, Pakistan, Hindistan, Nigeriya, İtaliya, Əfqanıstan və digər müxtəlif ölkələrdən olan miqrantlara qanunvercilikIə müəyyən olunmuş hüquq və vəzifələri barədə məlumat verilmiş, lazım gəldikdə Miqrasiya Xidməti mütəxəssislərinə istiqamətləndirilmişlər. Müraciət edən şəxslər əsasən aşağıdakı məsələlər üzrə məsləhət almaq istəyində olmuşlar:

- olduğu yer üzrə qeydiyyat;
- vətəndaşlıq məsələləri;
- müvəqqəti yaşamaq icazəsinin verilməsi;
- iş icazəsinin verilməsi;
- cərimlərin tətbiqi ilə bağlı.

**Miqrasiya qanunvericliyi və siyasəti ilə bağlı məsələlər:**

İctimai Şuranın sədri Ramil İskəndərli tərəfindən "Qanunsuz Miqrantların Saxlanma Mərkəzlərində Uşaqlara Dost Yanaşmasının Tətbiq edilməsi barədə" Təlimat layihəsi hazırlanmış **və** Dekabr ayının 7-də keçirilmiş iclasda Şura üzvlərinə əlavə və dəyişiklliklər üçün müzakirəyə təqdim edilmişdir. Qərara alınmışdır ki, 2024-cü ilin ilk iclasınadək bu Təlimat layihəsi ilə bağlı təkliflərə baxılacaq və İclasda qərar qəbul ediləcəkdir.

**İctimai Şuranın mediada işıqlandırılması**

İctimai Şuranın iclasları, tədbirlərdə iştirakları, səfərləri və şura ilə bağlı digər məlumatları KİV-də geniş işıqlandırılmışdır. İctimai Şura üzvlərinin əksəriyyətinin sosial media və KİV-də aktiv olması, üzvlərin təmsil etdiyi təşkilarların vebsaytlarının olması İctimai Şuranın fəaliyyətinin mediada və sosial şəbəkələrdə geniş işıqlandırılmasına səbəb olmuşdur.